UOT – 37

***Nüşabə Ələskər qızı Səfərova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*

## NİZAMİ GƏNCƏVİNİN BƏDİİ YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

***Нушаба Алескер гызы Сафарова***
*докторант по программе доктора философии*
*Бакинский Государственный Университет*

## НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ В ХУДОЖЕСТВЕННОМ ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ

***Nushaba Alaskar kyzy Safarova***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

## NATİONAL SPİRITUAL VALUES İN ARTİSTİC WORKS NİZAMİ GANJAVİ

**Xülasə.** Nizami Gəncəvi (1141-1209) özünün zəngin və hərtərəfli yaradıcılığı ilə bəşəriyyəti daim düşündürən və humanist, əxlaqi, etik ideyaları tərənnüm edən, milli-mənəvi dəyərlərimizi əks etdirən dahi Azərbaycan şairidir. Onun bədii irsində milli-mənəvi dəyərlər öz əksini tapmışdır. Onun “Xəmsə”si ədalət, sülh, insanpərvərlik, mərhəmət, mənəviyyat, xeyirxahlıq, əməksevərlik, dostluq, qardaşlıq və s. kimi milli mənəvi dəyərlərin məcmusudur .

Buna görə də Nizaminin əsərləri səkkiz əsrdən artıqdır ki, həmişə olduğu kimi, bu gün də aktual və müasirdir.

***Açar sözlər:*** *Nizami Gəncəvi, milli-mənəvi dəyərlər, bədii irs, Xəmsə*

**Резюме.** Низами Гянджеви (1141-1209) - гениальный азербайджанский поэт, который своим богатым и разносторонним творчеством всегда заставляет людей думать и прославляет гуманистические, моральные, этические идеи. В его художественном наследии отражаются наши национальные и духовные ценности. Его «Хамса» - это совокупность справедливости, мира, человечности, милосердия, духовности, доброты, трудолюбия, дружбы, братства и так далее. Поэтому творчество Низами более восьми веков актуальны и современны.

***Ключевые слова***: *Низами Гянджеви, национально-нравственные ценности, художественное наследие, Хамса*

**Summary.** Nizami Ganjavi (1141-1209) is a brilliant Azerbaijani poet who, with his rich and versatile creativity, always makes people think and glorifies humanistic, moral, ethical ideas. Its artistic heritage reflects our national and spiritual values. His "Hamsa" is an aggregate of justice, peace, humanity, mercy, spirituality, kindness, hard work, friendship, brotherhood, and so on. Therefore, the work of Nizami for more than eight centuries is relevant and modern.

***Key words:*** *Nizami Ganjavi, national and moral values, artistic heritage, Hamsa*

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev qüdrətli söz və fikir ustadının insanları daim mənəvi-əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq bu 2021-ci ili ölkəmizdə “Nizami Gəncəvi İli” elan etmişdir. Sərəncamda deyilir ki, “dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami

Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır" (1).

Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya bədii-fəlsəfi fikrinin ən yüksək pilləsində dayanır. Böyük mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuş və mükəmməl bədii sənətkarlığın əsasını qoymuşdur.

Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə hələ 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

Nizaminin əsərləri qüvvətli tərbiyəedici gücə, milli-mənəvi dəyərlərə malik olduğundan uzun illər boyu nəsillərin tərbiyəsində böyük rol oynamış, yeni nəsillər ondan müdrik məsləhətlər almış, dəyərli öyüdlər qazanmışlar.

Nizaminin bədii irsi insanları xeyirxahlığa, yaxşılığa, darda qalanların əlindən tutub kömək etməyə çağırır. Nizaminin fikrincə, sən başqasına kömək edərsənsə, başqası da bir gün sənə köməyini əsirgəməz. Bu mənada Nizami yazır:

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək
Sən də əldən düşüb yorulsan əgər
Sənin də yükünü bütün el çəkər
(3, s. 130).

Nizaminin fikrincə, yaxşılıq, xeyirxahlıq etməyi bacarmaq insan üçün mənəvi zənginlikdir. Belə mənəvi kamilliyə çatmağı, xeyirxah olmağı, başqalarına yaxşılıq etməyi bacarmaq lazımdır. Bu fikir aşağıdakı misralarda öz ifadəsini belə tapmışdır:

Yaxşılıq etməsən əgər insana
Böyüklük şərəfi verilməz sana (3, s. 131*)*.
Yaxud da:
Səadət kamalla yetişir başa
Xalqa hörmət elə, ədəblə yaşa (3, s. 131).

Nizami əsərlərində haqqında danışılan, təbliğ edilən xeyirxahlıq, yaxşılıq tək bir adama, yaxud ayrı-ayrı fərdlərə göstərilən münasibət olmayıb ictimai məna daşıyır, xalqın işinə yaramağa insanları çağırır:

Çalış öz xalqının işinə yara
Geysin əməlindən dünya zər-xara
(3, s. 132).

Şairin öz dövründə insanlarda görmək istədiyi və mənəvi keyfiyyət hesab etdiyi xeyirxahlıq, yaxşılıq, anlayışları heç bir zaman məhdudluq bilmir, həmin fikirlər bu gün də aktual və mənəvi keyfiyyət sayılır və yetişən gənc nəslin milli-mənəvi tərbiyəsində Nizami bədii irsinin böyük rol oynadığını görmək olur.

Nizami insanları yaxşılığa, xeyirxahlığa çağırdığı kimi, onlarda bu mənəvi keyfiyyətləri qiymətləndirməyin də vacib olduğunu əxlaqi keyfiyyət hesab etmişdir.

Nizami şeirlərində, ayrı-ayrı əsərlərindən gətirilən misallardan aydın olur ki, Nizami ideyalarında tərbiyənin məqsədi xoşbəxtliyin yalnız tək-tək insanlarla bağlı olmadığını, onun bütöv bir cəmiyyətə bağlı olduğunu göstərməkdir. Əlbəttə, insanların xoşbəxtliyi, cəmiyyətin xoşbəxtliyinə gətirib çıxarır. Nizami insan xoşbəxtliyindən danışarkən heç bir millət fərqini, cinsi ayrılığı, sinfi mövqeyi nəzərə almır.

Şairin əsərlərindən belə nəticəyə gəlmək olur ki, Nizaminin bütün şeirləri mənəvi, əxlaqi fikirlərlə yoğrulmuş, onun misraları insanları humanizmə, ədalətə, qayğı və mərhəmətə, nikbinliyə, doğru və dürüst olmağa, əməksevərliyə, vətənpərvərliyə və s. ən yüksək əxlaqi , mənəvi keyfiyyətlərə səsləyir.

Nizami elmə, biliyə yüksək əxlaqi qiymət verir. Elmsiz insanın qüvvətsiz olduğunu bildirir. Nizami xalqı öz taleyinə laqeyd qalmamağa, hüquqlarını başa düşüb, haqlarını tələb etmək üçün maarifə, biliklərə yiyələnməyə, həm də hər cür biliklərə deyil, insana xeyir gətirən, faydalı biliklərə yiyələnməyə çağırırdı. Nizami göstərirdi ki, cəmiyyətin ən yaxşı vətəndaşı an-

caq təhsilli, elmə qabil, maarifpərvər və müdrik olan insanlardır. Buna görə də hər bir şəxs ağıllı olmağa, biliklərə yiyələnməyə, müdrik insanlardan öyrənməyə çalışmalıdır. Nizami son nəticədə göstərir ki, biliyi olan qüvvətlidir:

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz (4, s. 30).

Nizami keyfiyyətli biliyi, həqiqi biliyi əsil bilik sayır və gəncliyə xitabən deyir:

Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən
Kamil bir palançı olsa da insan
Yaxşıdır yarımçıq papaqçılıqdan (4, s. 31).

Şair elmə yüksək qiymət verdiyi kimi elm adamına, alimə yüksək qiymət verir və alimin rütbəsinin bütün rütbələrdən uca olduğunu söyləyir, bütün elmlərin açarının alimlərdə olduğunu bildirir:

Hər uca rütbədən biliniz fəqət,
Alimin rütbəsi ucadır əlbət...(2, s. 55 )

Nizamiyə görə təlim prosesi insana bilik verməklə bərabər həm onu maddi, həm də mənəvi cəhətdən yüksəldir. Nizaminin fikrincə, təlimin son həddi yoxdur. O, insanı həmişə təkmilləşdirməli və mənəvi cəhətdən zənginləşdirməlidir.

Nizami bir mənəvi-əxlaqi keyfiyyət kimi dostluq və yoldaşlığa yüksək qiymət verir və qeyd edir ki, adamlar üzdə bir cür, dalda başqa cürdür. Şair həqiqi, sadiq dost tapmağı məsləhət görür:

Elə sadiq dost ara, səni darda qoymasın
Çəkib tordan çıxarsın, səni torda qoymasın (2, s. 54).

Nizami poeziyasının əməksevərlik əsas yer tutur. "Kərpickəsən qocanın hekayəsi" əməksevərlik baxımından çox ibrətamizdir. Cavan oğlan qoca kərpickəsənə daha asan işlə məşğul olmağı məsləhət gördükdə qoca cavanı utandıracaq şəkildə belə deyir:

Əlimi öyrətdim ki, bu sənətə
Bir gün əl açıb düşməyim xəcalətə...
Qarşında boyun büküb əl açmayım deyə mən
Əzəldən əl atmışam belə bir peşəyə mən.
Nə xəzinə yığanam, nə də tirmə geyənəm,
Öz halal zəhmətimin çörəyini yeyənəm (2, s. 56).

Nizami ilk növbədə xalqa xidmət etməyi, xalqın xidmətçisi olmağı öyüdləyir və bunu "Sirlər xəzinəsi" əsərində şərəf, ləyaqət, fəxarət hesab edir:

Xidmət etmək sayılır kişilikdən nişana,
Xalqına xidmət etmək bir şərəfdir insana.

"Yeddi gözəl" poemasında isə belə deyir:

Səadət kamalla yetişir başa,
Xalqa xidmət elə, ədəblə yaşa (2, s. 55).

Nizami düzlük, mərdlik, sadəlik, xoşxasiyyətlilik kimi keyfiyyətləri gənc nəsildə tərbiyə etməyi məsləhət bilirdi. Nizamiyə görə düzlük və doğruçuluq böyük mərdlikdir.

Nizami həddən artıq yumşaq, mülayim olmağı, yersiz təvazökarlığı ciddi nöqsan saymışdır. Nizami hər cür fəaliyyətdə orta mövqeyin tutulmasını məsləhət görür. Çoxun da, azın da zərərli olduğunu bildirir. Amma, onun ideyalarında orta hədd Qızıl hədd adlandırılır.

Səbirli olmaq, sirr saxlamaq, qənaətcil olmaq yüksək əxlaqi keyfiyyətlər sayılır. Nizami öz dəyərli misralarında bu əxlaqi keyfiyyətləri dilə gətirir və insanlara səbirli olmağı, sirr saxlamağı, qənaətcil olmağı tövsiyə edir.

Bu istiqamətdə Nizami misralarından bir neçə nümunəyə diqqət yetirək:

Səbir etməklə insan yetər kamına
Yavaş-yavaş çatar dilaramına...
Ovçu səbirsizlik göstərsə əgər,
Ovu nişanəyə dəyməz , yan gedər
Hər kim qənaətlə əgər şad olar,
O, hörmətli olar, sərazəd olar.
Kim saxlasa dilini, görməz canı xətanı,
Dil gətirər başlara, hər bəlanı, xətanı (3, 131).

Nizami mahir bir pedaqoq kimi təlim-tərbiyə işlərində yaş dövrlərinin nəzərə alınmasının böyük əhəmiyyəti olduğunu bildirmişdir. Nizami yaş dərəcələrindən danışarkən böyük filosof, tarixdə İlk müəllim hesab edilən Aristotelin 7-7 yaş bölgüsünü bəyənmiş, onu təqdir etmiş və oğlu Məhəmmədə 7, 14, 21 yaşlarında nəsihətamiz şeirlər yazmışdır.

Nizami 7 yaşlı oğlu Məhəmmədə yazdığı ilk nəsihətamiz şeir belədir:

Biliyə rağib ol, dünyanı qazan,
Sən əsmanı oxu, məna alarsan,
Vaxtı boş keçirmə qələm al ələ,
Allahın əmri ilə bilik kəsb elə (5).

Nizami 14 yaşlı Məhəmmədə isə belə ibrətamiz şeir yazmışdır:

**Sən ey 14 yaşlım, hər elmə yetkin,**
Gözündə əksi var iki aləmin.
7 yaşar oldun o zaman ki, sən
Açıldı gül kimi güləndə çəmən,
İndiki çatmışdır yaşın 14-ə,
Başın sərv kimi durur göylərdə.
Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərir həyat (3, s. 132).

Nizami 21 yaşlı Məhəmmədə şeirlə aşağıdakı tövsiyələrini verir:

Ey oğul , sənədir sözüm, yaxşı bax.
Çünki mən yatıram, sənsə qal oyaq...
Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular (3, s. 132).

Nizaminin dəyərli nəsihətamiz bədii irsində təlim və tərbiyənin bütün sahələri öz əksini tapmış və Azərbaycan təhsilinin inkişafında, yetişən gənc nəslin təlim və tərbiyəsində Nizami ideyalarından istifadə etmək hər zaman fayda verər və Nizami irsi əməyə, zəhmətə qatlaşmaqda, elm, bilik qazanmaqda, peşə, sənət dalınca getməkdə, yaxşı dostlar tapmaqda, ümumiyyətlə, kamil bir insan kimi formalaşmaqda gənclərə əsrlər boyu tərbiyəçi olmuş, yol göstərən işıqlı, ziyalı bir müəllim olmuşdur.

**Problemin aktuallığı.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2021-ci il Nizami Gəncəvi ili elan olunmuşdur. Bu sərəncam milli-mənəvi və mədəni irsimizə böyük diqqət və qayğıdan irəlidən gəlir ki, bu da məqaləmizin aktuallığına əsas verir.

**Problemin yeniliyi** ondan ibarətdir ki, Nizami Gəncəvinin bədii irsinə bir daha müraciət edilmiş, əsərlərindəki milli-mənəvi dəyərlər şərh edilmiş, onun oğlu Məhəmmədə nəsihətləri konkret olaraq oxucuların diqqətinə çatdırılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə toplanmış materiallardan müəllim və tərbiyəçilər, pedaqogika üzrə tədqiqatçılar, ədəbiyyat müəllimləri dəyərli mənbə kimi istifadə edə bilərlər

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 05 yanvar 2021 / Xalq qəzeti, 2021, 06 yanvar
2. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərslik. Bakı: Elm və təhsil, 2014, 432 s.
3. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2020, 538 s.
4. Əzizova Z.M., Əliyev S.H., Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Mütərcim, 2019, 128 s.

**E-mail:** prof.rufat@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova,**
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub:**10.06.2021